# Prezident İlham Əliyev əhalinin sosial vəziyyətini daim diqqətdə saxlayır

## Son bir neçə gün ərzində dövlət rəhbərinin imzaladığı sərəncamlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ciddi addımlardır



**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, eyni zamanda, yanvarın 26-da regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışlarında əhalinin sosial müdafiəsinin gücləndirilməsinin ən vacib məsələ kimi diqqət mərkəzində olduğunu dəfələrlə bildirmişdir.**

Dövlət başçısı keçən il bütün sosial proqramların icra edildiyini, iş yerlərində kütləvi ixtisarların aparılmadığını, ehtiyacı olanlara daha böyük məbləğdə ünvanlı sosial yardımların verildiyini diqqətə çatdırmışdır: "Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artmışdır".

Nazirlər Kabinetinin yanvarın 10-da keçirilən iclasında dövlət başçısı bu il pensiya və əməkhaqlarının qaldırılmasının zəruriliyini bildirmiş və hökumətə təcili təkliflərin hazırlanması tapşırığını vermişdi. Bununla Prezident dövlətin sosialyönümlü siyasətini prioritet elan edərək bir daha xalqla birliyinə sadiq qaldığını nümayiş etdirmişdir.

Biz dövlət başçısının hər hansı bir təklifindən sonra müvafiq qərar və sərəncamların hazırlanmasının dəfələrlə şahidi olmuşuq. Təkliflərin toplanaraq analiz edilməsi, müvafiq sərəncam və fərmanların hazırlanması bir qayda olaraq müəyyən vaxt tələb edir. Lakin Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasından cəmi bir neçə gün sonra dövlət başçısı əhalinin sosial müdafiəsi ilə bağlı fərman və sərəncamlar imzalamışdır.

Birinci sənəddə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləğinin 2016-cı il fevralın 1-dən 10 faiz artırılması nəzərdə tutulur, yəni Prezident təqaüdünün həcmi I qrup əlillərə - 165, II qrup əlillərə - 143, III qrup əlillərə - 110 manat təyin edilir. İkinci sənədlə şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 10 faiz artırılaraq 2016-cı il fevralın 1-dən 220 manat müəyyən olunur. Üçüncü sənədlə yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılaraq 110 manat müəyyən edilir. Dördüncü sənədlə məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılır.

Nazirlər Kabinetinin sözügedən iclasından təxminən bir həftə sonra - yanvarın 18-də Prezident İlham Əliyevin yanında yenidən iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirilmişdir. Müşavirədə çıxış edən ölkə rəhbəri bir daha 2015-ci ildə dünyada baş verən siyasi və iqtisadi gərginliklərin zəminində neft ixrac edən ölkələrin üzləşdiyi çətinlikləri qeyd etmiş, bununla belə Azərbaycanın digər neft ölkələri ilə müqayisədə ən az itki ilə üzləşdiyini diqqətə çatdırmışdır. Dövlət başçısı bildirmişdir ki, əgər Nazirlər Kabinetinin ötən iclasında verilən tapşırıqlar yerinə yetirilərsə, Azərbaycan qarşıya qoyulan sosial-iqtisadi məsələlərin həllinə asanlıqla nail ola biləcək.

Prezident, həmçinin islahatların dərinləşməsinin vacibliyini, ilk növbədə isə əhalinin sosial müdafiəsi ilə bağlı məsələlərə önəm veriləcəyini vurğulamışdır. Qeyd etmişdir ki, son illər ölkədə həyata keçirilən islahatlar, görülən tədbirlər ilk növbədə əhalinin rifah halının yaxşılaşdırılmasına yönəlmişdir. Yenidən pensiyaların baza hissəsinin 10 faiz, eləcə də əhalinin bir qrup aztəminatlı təbəqəsinə ödənilən müavinətlərin artırılmasının bu istiqamətdə atılan önəmli addımlardan olduğunu diqqətə çatdıran dövlət başçısı görülən tədbirlər nəticəsində çörəyin və unun qiymətinin aşağı düşdüyünü də bildirmişdir.

Manatın məzənnəsinin sabit saxlanmasının təkcə hökumətdən asılı olmadığını deyən Prezident bank sektorunun tənzimlənməsi ilə bağlı təkliflərə baxıldığını, milli valyutaya olan inamı artıran tədbirlərə start verildiyini və digər islahatların aparıldığını diqqətə çatdırmışdır.

Prezident İlham Əliyev həmçinin ipoteka bazarının səmərəliliyinin artırılması, bu yolla inşa olunacaq binaların tikintisinin sürətləndirilməsi ilə bağlı hökumətə təkliflər hazırlamağı tapşırmışdır.

Son 12 ildə Azərbaycanın dünyada sürətlə inkişaf edən ölkə olduğunu deyən Prezident İlham Əliyev bunu bütün beynəlxalq və maliyyə qurumlarının təsdiq etdiyini və bu il də Azərbaycanda iqtisadi inkişafla bağlı heç bir ciddi problemin yaşanmayacağına əminliyini bildirmişdir.

Elə həmin gün Prezident sözügedən müşavirədə anonsunu verdiyi bir sıra tədbirlərlə bağlı mühüm sənədlər imzaladı. Onların sırasında büdcədən maliyyələşən təhsil, səhiyyə, elm, mədəniyyət, gənclər və idman, sosial təminat müəssisələrində, eləcə də Daxili İşlər Nazirliyinin strukturlarında çalışanların əməkhaqlarının 10 faiz artırılması kimi əhalinin razılıqla qarşıladığı sərəncamlar var. Bunlardan əlavə, dövlət başçısı "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbir haqqında" Fərman və "Qeyri-neft məhsullarının ixracının optimallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam da imzalamışdır. Bir tərəfdən əməkhaqlarının, bundan əvvəl isə pensiyaların artırılması ilə əlaqədar cənab İlham Əliyevin imzaladığı sərəncamlar əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edirsə, imzalanan digər iki sənəd ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və sənaye istehsalının artırılmasını, eləcə də qeyri-neft məhsullarının stimullaşdırılması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılmasını və bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsini nəzərdə tutur.

Göründüyü kimi, iqtisadi çətinliklərin maksimum həddə çatdığı indiki vaxtda belə, dövlət nəinki əhalinin sosial müdafiəsini gücləndirir və onların bütün qayğılarını qarşılamaq üçün təxirəsalınmaz addımlar atır, həmçinin ölkənin neftdən asılılığını minimuma endirmək üçün beynəlxalq aləmdə sınaqdan çıxmış qabaqcıl təcrübə əsasında əsaslı islahatlar keçirmək istiqamətində konkret addımlar atır.

Dövlətlə xalqın vəhdəti, qırılmaz birliyi məhz budur və o, iqtisadiyyatımızı çökdürmək, bizi fəlakətlərin girdabına sürükləmək istəyənlərə ciddi mesajdır. Ölkədə sıravi vətəndaş da, məmur da yaxşı bilir ki, bizim ən güclü silahımız daxili sabitlik və birliyimizdir. Dövlət də, xalq da bu qırılmaz vəhdətin qorunması üçün bundan sonra da əlindən gələni əsirgəməyəcək.

**Elçin Zaman,**
***"İki sahil"***